# Azərbaycan-Polşa dostluğu

(Əvvəli 2-ci səhifədə).

qalası və Krakovun Vavel sarayı, eyni zamanda azərbaycan və polyak dillərində “Azərbaycan-Polşa diplomatik əlaqələrinin qurulmasının 540 və bərpasının 20 illiyi” sözləri əks olunmuşdur.

2008-ci ildə Qdansk şəhərinin Nafioport limanında ümummilli lider Heydər Əliyevin şərəfinə abidə ucaldılmışdır Abidənin üzərində “Azərbaycan Respublikasının Prezidenti Xəzərin enerji ehtiyatlarının Baltik dənizinə nəqli üçün tranzit dəhlizi yaradılması ideyasının təşəbbüskarı Heydər Əliyevin əziz xatirəsinə ithaf olunur” sözləri yazılmışdır.

2012-ci ildə Qrudzyonts şəhərinin Süvari Təlim Mərkəzindəki hərbi hissədə Polşanın azadlığı uğrunda mübarizə aparmış əslən azərbaycanlı olan polkovnik Vəli bəy Yadigarın şərəfinə xatirə lövhəsi qoyulmuşdur. Lövhənin üzərində general Kazimir Sosnkovskinin Vəli bəy Yadigar haqqındakı “O, öz ölkəsinin taleyini yaddan çıxarmayaraq, eyni zamanda Polşanın sadiq və sədaqətli oğlu olmuşdur" sözləri həkk edilmişdir. Vəli bəy Yadigar bu gün Polşa cəmiyyətində böyük hörmət və ehtiramla anılır.

2012-ci ildə Serotsk gimnaziyasında polyak neftçisi və geoloqu Vitold Zqlenitskinin (1850-1904) şərəfinə xatirə lövhəsi quraşdırılmışdır. Lövhənin üzərində “Neftçi, geoloq, Vola Kielpinskada orta məktəb və gimnaziyanın himayədarı Vitold Leon Yulian Zqlenitskinin xatirəsinə Azərbaycanda neft sənayesinin inkişafına verdiyi töhfəyə görə Azərbaycanın Polşadakı səfirliyinin hədiyyəsi” sözləri həkk edilmişdir.

Eləcə də 2012-ci ildə Nadajin şəhərində yerləşən II İohann Pavel adına gimnaziyanın ərazisində üzərində Roma Papası II İohann Pavelin Azərbaycan və azərbaycanlılar haqqında dediyi sözlərin əks olunduğu abidə qurulmuşdur.

2013-cü ildə Qdansk şəhərinin Orun parkındakı PR Tatarlarının Milli Mədəniyyət Mərkəzində polyak mənşəli Leon (1887-1939) və Olgierd Krıçinski (1884-1941) qardaşlarının şərəfinə xatirə lövhəsi quraşdırılmışdır. Xatirə lövhəsinin üzərində “1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikası qarşısında göstərdikləri xidmətlərin xatirəsinə” sözləri həkk edilmişdir.

2014-cü ildə Poznan şəhərindəki İqnatsi Yan Paderevski adına Musiqi Akademiyasında



1918-1919-cu illərdə birgə əməkdaşlıq etmiş Polşa Respublikasının Baş naziri İqnatsi Yan Paderevski və Azərbaycan Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun şərəfinə xatirə lövhəsi qoyulmuşdur. Xatirə lövhəsinin üzərində Azərbaycan Demokratik Respublikası Parla-




mentinin sədri Əlimərdan bəy Topçubaşovun Polşa Respublikasının Baş naziri İqnatsi Yan Paderevskiyə ünvanlandığı məktubun mətni yazılmışdır.

2014-cü ildə Krakovda yerləşən S.Staşits Dağ-Mədən Akademiyasında Azərbaycanda neft sənayesinin inkişafına verdiyi töhfəyə görə polyak əsilli mühəndis Pavel Pototskinin (1879-1932) şərəfinə abidə ucaldılmışdır. Abidənin üzərində Azərbaycan Respublikasının xəritəsi çəkilmişdir.

2014-cü ildə Lodz Universitetində polyak Stefan Skşıvanın (1876-1932) şərəfinə xatirə lövhəsi quraşdırılıb. Xatirə lövhəsinin üzərində “XX əsrin əvvəllərində Bakını su ilə təmin edən su kəmərinin tikintisində xidmətlərinə görə” sözləri həkk olunmuşdur.

2015-ci ildə Varşava şəhərindəki Y.Pilsudsk adına İdman Akademiyasında marşal Yuzef Pilsudskinin (1867-1935) şərəfinə xatirə lövhəsi qurulmuşdur. Xatirə lövhəsinin üzərində “Azərbaycan Respublikasının müstəqillik cəhdlərinə və 1918-1930-cu illərdə azərbaycanlı siyasi mühacirlərə göstərdiyi qayğıya görə Polşa dövlətinin başçısı marşal Yuzef Pilsudskiyə təşəkkür hissi ilə” sözləri qeyd olunmuşdur.

2015-ci ildə Vrotslav Universitetində polyak alim və tərcüməçi Aleksandr Xodzkonun (1804-1891) şərəfinə xatirə lövhəsi qoyulub. Xatirə lövhəsinin üzərində “Tanınmış polyak şairi və şərqşünası Aleksandr Xodzkoya Azərbaycan xalq eposu “Koroğlu”nun tərcüməsi, nəşri və təbliğinə görə dərin təşəkkür hissi ilə” sözləri yazılmışdır.

2015-ci ildə Poznan şəhərində yerləşən Adam Mitskeviç adına Universitetdə iki görkəmli xadim - polyak şairi Adam Mitskeviç (1798-1855) və azərbaycanlı şərqşünas Mirzə Cəfər Topçubaşovun (1790-1869) dostluqlarının şərəfinə xatirə lövhəsi asılmışdır. Xatirə lövhəsinin üzərində azərbaycanlı alim, şərqşünas professor, Adam Mitskeviçin “Sonetləri "nin tərcüməçisi Mirzə Cəfər Topçubaşovun “Polyak Adam Mitskeviç həqiqətən əsrin poeziya sənətinin nuru və öz xalqının qüruru olmuşdur” sözləri həkk edilmişdir.

2015-ci ildə Azərbaycanın Polşadakı səfirliyi Poznandakı İqnatsi Yan Paderevski adına Musiqi Akademiyasına tar hədiyyə edib. Hədiyyə Musiqi Akademiyasının muzeyində saxlanılır.

2016-cı ildə Varşava şəhərində yerləşən Polşa Olimpiya Komitəsinin binasında Bakıda keçirilmiş I Avropa Oyunlarında medal qazanmış polyak idmançıların şərəfinə lövhə qurulmuşdur. Lövhənin üzərində Bakıda keçirilmiş I Avropa Oyunlarında medal qazanmış 20 polyak idmançısının adı göstərilmişdir.

2017-ci ildə Soxaçev şəhərində yerləşən Mədəniyyət Mərkəzində polyak bəstəkarı Antoni Kontskinin (1817-1899) şərəfinə xatirə lövhəsi quraşdırılmışdır. Xatirə lövhəsinin üzərində “Azərbaycan xalq musiqisini Avropa notları ilə yazaraq Azərbaycan mədəniyyətini Avropada təbliğ etdiyinə görə polyak bəstəkar Antoni Kontskiyə (1817-1899) təşəkkür hissi ilə” sözləri həkk olunmuşdur.

2017-ci ildə Torun şəhərində yerləşən Sibir Sürgünləri adına 6 saylı liseyin binasında polyak tədqiqatçısı və səyyahı Mixal Butovd-Andjeykoviçin şərəfinə xatirə lövhəsi asılmışdır. Xatirə lövhəsinin üzərində “1842, 1845 və 1859-cu illərdə Varşavada nəşr edilmiş “Qafqaz oçerkləri” kitabında Bakı şəhərinin yaranması haqqında əfsanə və Məş-



hur Qız qalası haqqında məlumat vermiş və Azərbaycana səfər etmiş tanınmış polyak tədqiqatçısı və səyyahı Mixal Butovd-Andjeykoviçə təşəkkür hissi ilə” sözləri qeyd edilmişdir.

2017-ci ildə Beljçe şəhərində Nikolay Kopernik adına məktəbdə Azərbaycan alimi və tarixçisi Abbasqulu ağa Bakıxanov (1794-1847) və polyak riyaziyyatçısı və astronomu Nikolay Kopernikin (1473-1543) şərəfinə xatirə lövhəsi quraşdırılıb. Xatirə lövhəsinin üzərində Abbasqulu ağa Bakıxanovun "Bütün elmi nəzəriyyələr arasında ən mükəmməli Nikolay Kopernik tərəfindən yaradılmışdır, çünki onun nəzəriyyəsi bütün suallara inandırıcı cavab verir. Bir çox yerlərdə bu nəzəriyyə digər baxışları təkzib edərək, çoxsaylı tədqiqatlarla təsdiq edilmiş və daha dəqiq işlənib hazırlanmışdır” sözləri yazılmışdır.

2017-ci ildə “Müstəqil Azərbaycan və Polşa uğrunda mübarizlərin xatirəsinə” aid döş nişanı təsis edilmişdir. Nişanının üzərində “Maçey Sulkeviç polyak, Azərbaycan Milli Ordusunun generalı”, “Vəli bəy Yadigar azərbaycanlı, Polşa Ordusunun polkovniki” və “Azərbaycanın Polşadakı səfirliyi, 2017” sözləri həkk edilmişdir.

2017-ci ildə Varşavadakı Y.Polinski adına parkda Azərbaycan Milli ordusunun baş qərargah rəisi olmuş polyak əsilli general Maçey Sulkeviçin və Polşa Milli Ordusunun əslən azərbaycanlı polkovniki Vəli bəy Yadigarın şərəfinə abidə ucaldılmışdır. Abidənin üzərində Azərbaycanın və Polşanın xəritələri, eyni zamanda “Maçey Sulkeviç polyak, Azərbaycan Milli Ordusunun generalı”, ‘‘Vəli bəy Yadigar azərbaycanlı, Polşa Ordusunun polkovniki” və ‘‘Müstəqil Polşa, Azərbaycan uğrunda mübarizələrin xatirəsinə” sözləri qeyd olunmuşdur.

2017-ci ildə Torunda Azərbaycan-Polşa diplomatik əlaqələrinin qurulmasının 545 illiyinə həsr edilmiş xatirə lövhəsi qurulmuşdur. Lövhənin üzərində “Əsası 1472-ci ildə Azərbaycan hökmdarı Ağqoyunlu sülaləsindən Uzun Həsən və Polşa Kralı IV Kazimir Yciqellon tərəfindən başlamış Azərbaycan-Polşa diplomatik əlaqələrinin 545 illiyinin şərəfinə” sözləri yazılmışdır.

2017- ci ildə Tereşin gimnaziyasında Azərbaycanda anadan olmuş və Skotnikidə Polşa kökləri olan dahi violençelist, dirijor və pedaqoq, tanınmış musiqiçi Mstislav Rostropoviçin (1927-2017) şərəfinə xatirə lövhəsi qurulmuşdur. Xatirə lövhəsinin üzərində “Azərbaycan və dünya musiqisinin inkişafına töhfələrinə görə Mstislav Rostropoviçin şərəfinə” və “Xatirə lövhəsi Mstislav Leopoldoviç Rostropoviçin anadan olmasının 90 illiyi münasibətilə qurulmuşdur" sözləri həkk edilmişdir.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Sədri Əlimərdan bəy Topçubaşova və həmin dövrdə Polşa Respublikasının Baş naziri olmuş Iqnatsi Yan Paderevskiyə həsr edilmiş xatirə nişanı təsis edilmişdir. Xatirə nişanının üzərində hər iki tarixi şəxsiyyətin şəkilləri, Azərbaycan Respublikasının Müstəqilliyinin 100 illiyi, Polşa Respublikasının Müstəqilliyinin Bərpa Olunmasının 100 illiyi, 1918-2018 tarixləri və hər iki ölkənin gerbləri çəkilmişdir.

**«Qəbələ»**

## Şabalıd ağaclarında gövdə yanığı xəstəliyi

***Bölgənin şabalıd bağlarında göbələk mənşəli gövdə yanığı xəstəliyi müşahidə olunur. Xəstəliyə qarşı dünya miqyasında tam səmərəli mübarizə tədbiri olmadığı üçün təsərrüfat sahiblərinə aqrotexniki mübarizə tədbirlərinin aparılması tövsiyə olunur.***

Mütəxəssislər bildirirlər ki, ağacın gövdəsində xəstəliyin əlamətləri müşahidə olunursa, mexaniki üsullardan istifadə etməklə, xəstəliyə yoluxaraq qurumuş və çürümüş hissələr təmizlənməli, xəstəliyə 30-60 faiz yoluxmuş ağacların budaqları zədələrdən 25 santimetr aşağı olmaqla kəsilməli və yandırılmalı, 60 faizdən çox yoluxmuş və tam qurumuş ağaclar isə kök boğazından yuxarı kəsilməli və kötüyün yerüstü hissəsi də daxil olmaqla yandırılmalıdır.

Bu proses xüsusilə qış aylarında həyata keçirilməlidir ki, yazda xəstəlik digər ağaclara yayılmasın. Eyni zamanda, ağacın özünü yenidən bərpa etməsi üçün ona 15 gündən bir 3 dəfə karbendazim, benomil, epoksikonazol tərkibli fungisidlər çilənməli və ya gövdələrin inyeksiyası həyata keçirilməlidir.

## Vətəndaşların nəzərinə

Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli Dövlət Ədliyyə müşaviri cənab Zakir Qaralov tərəfindən 27 iyul 2018-ci il tarixdə saat $10^{00}$ da Oğuz Rayon Prokurorluğunun binasında Oğuz, Qəbələ, Şəki, Qax, Balakən və Zaqatala rayonlarında yaşayan vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərə dair qəbulu keçiriləcəkdir.

Qəbələ rayonundan qəbula gəlmək istəyən vətəndaşların rayon prokurorluğunda həftənin bütün günləri saat $9^{00}$-dan $20^{00}$-dək əvvəldən qeydiyyatı aparılır.

Qəbulunun keçiriləcəyi gün vətəndaşların Oğuz şəhərinə getmələri üçün nəqliyyat vasitələri ayrılacaqdır.

**QƏBƏLƏ RAYON PROKURORLUĞU.**